SİYASİ ELMLƏR

UOT 32

**İsaxan VƏLİYEV**

*Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun aparat rəhbəri, AMEA Hüquq və İnsan Haqları İnstitutunun əməkdaşı, hüquq ü. e. d., professor*

# DÖVLƏT SİYASƏTİNDƏ PRİORİTET HƏDƏFLƏR: GÜCLÜ DÖVLƏT, MÜSTƏQİL SİYASƏT, YÜKSƏK SOSİAL RİFAH*

***Hər bir xalqın inkişaf və tərəqqi yönümünü, habelə dövlət siyasətinin prioritet hədəflərini düzgün müəyyənləşdirməsi müxtəlif tarixi mərhələlərdə qarşıya qoyulan məqsədlərdən asılıdır. Cəmiyyətdə mütləq çoxluğun mənafeyini dolğun şəkildə əks etdirən bu məqsədlər müəyyən hallarda qlobal səciyyə daşıması, mütərəqqi və nəcib mahiyyəti ilə ictimai şüurda möhkəmlənir, inkişaf edərək milli ideya səviyyəsinə yüksəlir. Zəmanəsinin böyük dühası Viktor Hüqo yazırdı ki, «Dünyada bütün ordulardan daha güclü olan bir qüvvə var – bu, vaxtı, zamanı yetişən ideyadır».***

Əsrlər boyu azərbaycanlıların milli düşüncəsinə, dövlətçilik təfəkkürünə hakim kəsilən, xalqı aşkar-gizli mübarizə ruhunda kökləyən ali - ideya Azərbaycanın istiqlala qovuşması, müstəqil dövlət kimi taleyini azad şəkildə müəyyənləşdirməsi olmuşdur. Bu ideyanın real əsaslar üzərində inkişafı XX əsrin əvvəllərində müşahidə olunan milli mədəni intibah və maarifçilik hərəkatı ilə eyni mərhələyə təsadüf etməklə, «türkləşmə, islamlaşma, avropalaşma» tezisini önə çəkən mükəmməl formula əsaslanmışdır. O dövrdə siyasi elita milli ideyanın son məqsədi olaraq Rusiya imperiyasının tərkibində milli ərazi muxtariyyətinin yaradılması uğrunda mübarizə yolunu seçmişdi. Lakin sonradan bir tərəfdən Çar Rusiyasında baş verən proseslər, digər tərəfdən ictimai şüurda milli identikliyin güclənməsi müstəqillik məramının reallaşmasına real imkanlar açmışdı. Beləliklə, bu günlərdə 100 illik yubileyini böyük coşqu ilə qeyd etdiyimiz Azərbaycan Xalq Cümhuriyyətinin 1918-ci ilin 28 mayında yaranması ilə milli ideya, qısamüddətli də olsa, özünün strateji hədəfinə çatmışdı.

Cümhuriyyətin kənar hərbi müdaxilə nəticəsində süqutundan sonra qırmızı imperiyanın sərt təzyiq və repressiyaları ilə üzləşən Azərbaycan xalqı qəlbində qubar salmış müstəqillik idealını qoruyub saxlamışdı. Lakin yalnız ötən əsrin 70-ci illərində böyük şəxsiyyət Heydər Əliyevin sovet Azərbaycanında hakimiyyətə rəhbər seçilməsi azərbaycanlıların qəlbində közərən müstəqillik düşüncəsini yenidən milli ideyaya çevirmişdi.

Azərbaycanlıların milli düşüncə və dövlətçilik təfəkkürünə hakim kəsilən, xalqı aşkar-gizli mübarizə ruhunda kökləyən milli ideya - Azərbaycanın istiqlala qovuşması, müstəqil dövlət kimi taleyini azad şəkildə müəyyənləşdirməsi - ötən əsrin sonlarında «soyuq müharibə»nin başa çatması zəminində cərəyan edən qlobalmiqyaslı proseslərin məntiqi yekunu kimi gerçəkləşmişdi. Lakin ilkin mərhələdə, daha dəqiqi, 1991-ci ilin oktyabrından 1993-cü ilin iyun ayınadək respublikada sosial-iqtisadi tənəzzülün dərinləşməsi, insanların sosial rifah halının pisləşməsi, ictimai-siyasi sabitliyin addımbaşı pozulması, insan hüquqlarına təminatın olmaması və s. destruktiv proseslər respublikanın de-fakto müstəqilliyinə imkan verməmişdi.

---

* Məqalə fəlsəfə ü.e.d., prof. İlham Məmmədzadə tərəfindən çapa məsləhət görülüb.

Böyük filosof Tur Xander demişdir ki*, «İdeya və iradə müəyyən sosial bazaya yiyələnəndə siyasətə çevrilir».* İngiltərənin böyük dövlət xadimi və mütəfəkkiri Uinston Çörçil isə yazırdı: *"Dövlət xadiminin siyasi xadimdən fərqi odur ki, siyasətçi gələcək seçkiləri, dövlət xadimi isə gələcək nəsilləri düşünərək fəaliyyət göstərir».* Bu mənada, Azərbaycan milli ideyasının əsas qayəsində yer almış müstəqil dövlətçilik arzusunun praktiki əsaslar üzərində reallığa çevrilməsi, hərtərəfli inkişaf və tərəqqiyə zəmin hazırlanması məhz ümummilli lider Heydər Əliyevin müstəqil Azərbaycanda rəhbərliyi illərində mümkün olmuşdur. Hazırda ictimai fikirdə mütləqləşmiş qənaətlərdən biri də məhz budur ki, ulu öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə qayıdışı Azərbaycanı müstəqil dövlət kimi dünya xəritəsindən silinmək təhlükəsindən qorumuşdur.

Bu mərhələdən iqtisadi, siyasi, hüquqi və digər sahələrdə kompleks islahatlar həyata keçirən, ölkənin milli iqtisadi inkişaf modelinin xüsusiyyətlərini elmi şəkildə açıqlayan, yeni neft strategiyasını irəli sürən, cəmiyyətdə sabitliyin qarantı olan orta təbəqənin - sahibkarlar sinfinin formalaşması yönümündə ardıcıl addımlar atan ümummilli lider Heydər Əliyev dövlət müstəqilliyinin möhkəmləndirilməsini və Azərbaycanın davamlı inkişaf yoluna çıxarılmasını həmin dövrün başlıca hədəflərinə çevirmişdir. Həmin dövrdə siyasi sabitliyin qorunması, respublikanın demokratik, hüquqi, dünyəvi dövlətə çevrilməsi, ərazi bütövlüyü və suverenliyinin bərpası, beynəlxalq miqyasda mənafelərinin etibarlı şəkildə qorunması, iqtisadi dirçəlişin təmin edilməsi kimi ümdə məqsədlər önə çəkilmişdir.

Antik yunan filosofu Sokrat zamanında yazırdı ki, siyasət insanları inandırmaq, müəyyən məqsədlər naminə səfərbər etmək, onların şüuruna təsir göstərmək vasitəsidir. Siyasi liderin etimad qazanmaq üçün seçdiyi vasitə nə qədər dürüst və saf olarsa, xalqın həmin şəxsiyyətə inamı da bir o qədər güclü olar. Bu mənada ümummilli lider Heydər Əliyevin ən nəcib mənəvi keyfiyyətlərindən biri də siyasi fəaliyyətinin bütün dövrlərində məhz sosial ədalət, düzgünlük və humanizm prinsiplərinə istinad etməsi olmuşdur. İnsan hüquq və azadlıqlarına sadiqlik, ilk növbədə, ulu öndərin yüksək daxili demokratizmindən, hər kəsə örnək olacaq vətəndaşlıq məsuliyyətindən irəli gəlmişdir.

Ümummilli lider müdrikliklə bildirmişdir ki, Azərbaycan könüllü olaraq qoşulduğu demokratiya yolunun iqtisadi bazisə əsaslanan təkamül modelini özünün alternativsiz inkişaf yolu hesab edir. Keçid dövrünü yaşayan respublikamızda demokratik proseslərin iqtisadi islahatlara adekvat şəkildə tətbiqi bu modelin diktə etdiyi başlıca şərtlərdən olmuşdur. Heydər Əliyev milli gəliri yüksəltmədən, ümumi daxili məhsulun artımına, vətəndaşların yaşayış tərzində əsaslı dəyişikliklərə nail olmadan, təşəbbüskarlığa və maddiləşən işgüzar fəallığa təkan verən əlverişli biznes mühiti yaratmadan, milli sahibkarlığın inkişafını təmin etmədən vətəndaş cəmiyyəti və hüquqi dövlət ideyasının mümkünsüzlüyünü bildirmişdir.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyev bir müddət əvvəl rəsmi mətbuatda dərc olunmuş «Prezident İlham Əliyevin iqtisadi inkişaf strategiyasının əsas istiqamətləri» əsərində ulu öndər Heydər Əliyevin Azərbaycanın dövlət siyasətinin konseptual əsasda formalaşması və iqtisadi inkişafın təmin olunması baxımından tarixi xidmətlərini önə çəkmişdir: *«Heydər Əliyev iqtisadi strategiyası hələ uzunmüddətli dövr üçün Azərbaycanda əsas götürüləcək. Prezident İlham Əliyev 2003-cü ildə seçkiqabağı çıxışlarında Ulu Öndərin müəyyən etdiyi ümumi iqtisadi kursun davam etdiriləcəyini bəyan etmişdir. Çünki bu kurs dünya sivilizasiyasının qəbul etdiyi bazar iqtisadiyyatı prinsiplərinə, azad sahibkarlığa, beynəlxalq iqtisadi əməkdaşlığın dərinləşməsinə, sosialyönümlü iqtisadi siyasətin həyata keçirilməsinə əsaslanır».*(1)

Müstəqilliyin ilk illərində cəmiyyətdə həllini gözləyən bir sıra problemləri, dövlətçilik üçün daxili və xarici təhdidlərin aradan qalxmadığını, sivil siyasi münasibətlər sisteminin formalaşmadığını nəzərə alan ulu öndər Heydər Əliyev bir müddət «dəmir əl» siyasətinə

üstünlük vermək məcburiyyətində qalmış, totalitar düşüncə tərzinin ziyanlı komplekslərindən azad olmamış cəmiyyətin liberal demokratik islahatlara tədricən hazırlanmasını vacib saymışdır. Bunun üçün dövlət idarəetmə sistemində institusional xarakterli islahatların həyata keçirilməsini təmin edən, iqtisadi inkişaf üçün etibarlı zəmin hazırlayan, qanunçuluğu, hüquq qaydalarını möhkəmləndirən böyük strateq demokratiyanı üstqurum kimi dəyərləndirərək onun bazisində, ana axarında iqtisadiyyatın dayandığını böyük müdrikliklə vurğulamışdır.

Hər bir dövlətdə siyasət cəmiyyətdəki siyasi münasibətlər və institutlarla yanaşı, həm də müəyyən ideologiya vasitəsilə həyata keçirilir. Milli ideologiya insanların siyasi fəaliyyətini şüurda sistemli şəkildə əks etdirən baxışların, ideya və nəzəriyyələrin məcmusu kimi çıxış edir. Amerikanın böyük dövlət xadimi olmuş Teodor Ruzvelt demişdir: *«Ən çox o siyasətçi uğur qazanır ki, xalqın rifahı naminə düşündüklərini əməli fəaliyyəti ilə reallşaşdıra bilir».*

Ulu öndər Heydər Əliyevin uzunmüddətli hədəflərə hesablanmış praqmatik siyasi kursunu inamla davam etdirən Azərbaycan Prezidenti cənab İlham Əliyevin son 15 illik prezidentlik dövrü milli mənafe naminə lider əzmi və qətiyyətinin parlaq nümunəsi kimi tarixiləşmişdir. Təsadüfi deyildir ki, 2018-ci ilin 11 aprel seçkilərində Yeni Azərbaycan Partiyasının layiqli namizədinə - cənab İlham Əliyevə yüksək etimad göstərmiş milyonlarla insan məhz ölkəmizin uğurlu sabahı və dinamik inkişafı baxımından ən düzgün qərarı vermişdir.

Azərbaycan cəmiyyətində son nəticə həmişə siyasi illüziyaları deyil, real göstəriciləri qiymətləndirir - ictimai rəyin siyasi vədlərə deyil, konkret faktlara qiymət verməsi anlamında xalqımız kifayət qədər müdrikdir. Azərbaycan Prezidenti cənab İlham Əliyev 2018-ci il aprelin 18-də Milli Məclisdə keçirilmiş andiçmə mərasimində bununla bağlı haqlı olaraq demişdir: *«Son 15 il ərzində Azərbaycanda hərtərəfli inkişaf təmin edilmişdir. Bunun əsas şərti ondan ibarətdir ki, biz Ulu Öndərin yolu ilə gedirik. Onun qoyduğu yol yeganə düzgün yoldur və Azərbaycanın müstəqillik tarixi bunun əyani sübutudur. Son 15 il ərzində bu yolla gedərək biz böyük uğurlara imza atdıq, Azərbaycan xalqı təhlükəsizlik, sabitlik şəraitində yaşamışdır...Azərbaycanda sabitliyin təminatçısı Azərbaycan xalqıdır və bizim siyasətimizdir. Ona görə xalq-iqtidar birliyi bizim uğurlarımızın əsas şərtidir».*

Ümummilli lider Heydər Əliyevin layiqli siyasi varisi cənab İlham Əliyev hələ 2003-cü ilin oktyabrında keçirilmiş prezident seçkilərinə «Əsl siyasət konkret, real iş görməkdən ibarətdir» tezisi ilə qatılmışdı. Bu fikir əslində həmin dövrəqədərki fəaliyyəti ilə də insanların nəzərində zirvələrə ucalmış cənab İlham Əliyevin xalq üçün çalışmaq, onun arzu və istəklərini real, əməli fəaliyyət müstəvisində gerçəkləşdirmək, «hər bir azərbaycanlının layiqli prezidenti olmaq» istəyinin yığcam, fəqət son dərəcə dərin, ümumiləşdirilmiş fəlsəfi məzmununu özündə ehtiva etmişdir. Hər cür pafosdan, populizmdən tamamilə uzaq, praqmatik, realist təfəkkürlü lider kimi tanınan cənab İlham Əliyevin elə bir vədi yoxdur ki, son 15 ildə bəyanat səviyyəsində reallaşmamış qalsın. Əksinə, respublikamız öz liderinin yüksək iradəsi, əzmi, qətiyyəti, idarəçilik keyfiyyətləri sayəsində fantastik görünə biləcək sürətli inkişaf yolu keçmiş, bir sıra taleyüklü məsələlərin həllinə nail olmuşdur.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyev «Prezident İlham Əliyevin iqtisadi inkişaf strategiyasının əsas istiqamətləri» əsərində yazır: *«Son 15 il sosial-iqtisadi inkişafın sürətləndirilməsi ilə xarakterizə edilməklə Azərbaycan iqtisadiyyatı üçün olduqca uğurlu olmuşdur. Əldə olunan uğurları, ilk növbədə, ölkə rəhbərliyinin siyasi iradəsi və qətiyyətli addımları, ictimai-siyasi sabitliyin qorunub saxlanılması, dövlət idarəçiliyinin səmərəli təşkili, vahid dövlət siyasətinin həyata keçirilməsi, iqtisadi inkişafda əsas hədəflərin dəqiq müəyyən edilməsi, islahatların davamlı xarakter daşıması, cəmiyyətin real ehtiyaclarının ödənilməsinə yönəldilmiş dövlət proqramlarının reallaşdırılmasını təmin etmişdir. Bu müddət ərzində Azərbaycan vətəndaşları ölkəmizin*

*iqtisadi gücü və qüdrətinin getdikcə artmasının şahidi olmaqda və iqtisadi sahədə müşahidə edilən mütərəqqi dəyişiklikləri özünün həyat səviyyəsində, rifahında hiss etməkdədirlər».*(1)

Ayrı-ayrı milli dövlətlərin nümunəsində inkişaf konsepsiyalarının hazırlanma və reallaşdırılma səviyyəsi, forması fərqli olmuşdur. Bununla belə, əsas məsələ inkişaf konsepsiyasının hazırlanmasında cəmiyyətin ən mühüm institutlarının əlaqəli fəaliyyətinin təmin olunmasıdır. Konkret olaraq ABŞ nümunəsi əsasında demək mümkündür ki, hələ prezident Kennedinin hakimiyyəti dövründə bu dövlətin inkişaf strategiyası hazırlanarkən hökumətin, ayrı-ayrı məmurların, elm-təhsil ocaqlarının, beyin mərkəzlərinin və ictimai institutların birgə, əlaqəli əməyindən istifadə edilmişdi. Məhz bu amil hər bir ölkədə inkişaf strategiyasının uğurluluğunu təmin edən ən vacib amildir.

Dövlətimizin başçısının son illərdə imzaladığı "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası və "Milli iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsi" kimi konseptual əhəmiyyətli sənədlər deməyə əsas verir ki, Azərbaycanın uzunmüddətli inkişaf strategiyası dərin elmi proqnozlara əsaslanır. Son 3 ildə Azərbaycan Respublikası Prezidentinin İqtisadi İslahatlar üzrə Köməkçisi Xidmətinin, eləcə də Maliyyə Bazarlarına Nəzarət Palatasının, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin, Maliyyə Sabitliyi və Turizm şuralarının yaradılması dövlət siyasətinin dərin elmi əsaslarla aparılması məqsədinə hesablanmışdır.

Strateji Yol Xəritəsində nəzərdə tutulmuş məqsədlərin həyata keçirilməsi nəticəsində qeyri-neft sektoru üzrə ixracın 2015-ci ildəki adambaşına 170 ABŞ dollarından 2025-ci ildə ən azı 450 ABŞ dollarına qaldırılması əsas hədəflərdən biridir. Hökumət ixracı məhz qeyri-neft sektoru məhsulları hesabına genişləndirməyi qarşıya məqsəd qoymuşdur. Sənəddə bu məqsədlə sənayenin bir sıra mühüm sahələrinin müəyyənləşdirilməsi və həmin sahələrə investisiyaların cəlb edilməsi vacibliyi önə çəkilir. Strateji Yol Xəritəsi 2025-ci ilədək ticari mal və xidmətlər sektorunda 150 min əlavə iş yerinin yaradılmasını da hədəfləyir.

Dövlət büdcəsinin ARDNF-in transfertlərindən asılılığının azaldılması da qarşıya qoyulmuş əsas vəzifələrdən biridir. Bu gün dövlət sektorunda xərclənən hər ikinci manat (təqribən 50 faizi) ARDNF-in transfertləri hesabına maliyyələşdirilir. Hökumət 2015-ci ilədək bu rəqəmi 15 faizə endirməyi qarşıya məqsəd qoymuşdur. Bu, Azərbaycan iqtisadiyyatına neft qiymətlərindəki dəyişikliklərin ciddi təsirini əsaslı şəkildə azaltmış olacaqdır.(2)

Dövlətimizin başçısı cənab İlham Əliyev Nazirlər Kabinetinin son iclasında neft amilindən asılılığın tamamilə azaldılmasını ölkəmiz üçün prioritet məsələlərdən biri olduğunu xüsusi vurğulamışdır: *"Bəzi hallarda sual yaranır ki, indi neftin qiyməti bir qədər sabitləşdi, bu islahatlar davam etdiriləcəkmi yoxsa yox? Mütləq davam etdiriləcək. Neftin qiyməti bizim üçün əsas amil olmamalıdır və Azərbaycan iqtisadiyyatı elə bir səviyyəyə çatmalıdır ki, neftin istənilən qiyməti bizə böyük təsir etməsin, yalnız ehtiyatlarımızın artırılmasına xidmət göstərsin. Giriş sözümdə qeyd etdiyim kimi, bu ilin birinci rübündə biz 2,2 milyard dollar əlavə vəsait toplamışıq. Ona görə, bu il də iqtisadi islahatlar davam etdiriləcək. Nəinki iqtisadi və bütün digər sahələrdə islahatlar aparılacaqdır ki, ölkəmiz daha da güclənsin, müasirləşsin və Azərbaycanda dayanıqlı uzunmüddətli inkişaf təmin edilsin».*(3)

Ümumilikdə son illər Azərbaycanın xarici sərmayələr üçün cəlbediciliyinin qorunması, milli iqtisadiyyatın müxtəlif sferalarına yönələn sərmayələrin qeyri-neft sektoruna, regionların inkişafına doğru istiqamətləndirilməsi, «qara qızıl»dan əldə olunan gəlirlərin respublikada güclü insan kapitalının formalaşdırılması məqsədinə yönəldilməsi iqtisadi siyasətin əsas prioritetləri kimi diqqəti çəkir. Bu da təsadüfi deyildir ki, Dünya İqtisadi Forumunun "İnsan kapitalı indeksi" hesabatında Azərbaycan 124 ölkə arasında 63-cü yeri tutmaqla Türkiyə, Çin, İndoneziya və Küveyt kimi ölkələri qabaqlamışdır.

Ötən 15 ildə dövlət siyasətinin prioritet istiqamətlərindən biri də strateji əhəmiyyətli layihələrin reallaşdırılması olmuşdur. Bu gün Azərbaycan bütövlükdə MDB və Avropa məkanında heç bir ölkədən enerji asılılığı olmayan, müstəqil siyasət yeridən azsaylı dövlətlərdən biridir. Ümummilli liderin yeni neft strategiyasının tərkib hissəsi olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri, Bakı-Tbilisi Ərzurum qaz kəməri istifadəyə verilmiş, «Ümid», «Abşeron» kimi perspektivli yataqlar kəşf olunmuş, Şərqlə Qərbi qovuşduran Bakı-Tbilisi-Qars dəmiryolu xətti istifadəyə verilmiş, TAP, TANAP kimi enerji layihələri real həyata vəsiqə almışdır. “Şahdəniz-2” qaz-kondensat yatağının tammiqyaslı işlənməsi üzrə işlərin 96 faizi, Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsi üzrə işlərin 98 faizi, TANAP layihəsi üzrə işlərin 82 faizi, TAP-ın inşası üzrə isə 53 faizi icra edilmişdir.

2018-ci ilin birinci rübünün yekunları deməyə əsas verir ki, Azərbaycan böhranın son mərhələsini də inamla geridə qoyur. Hesabat dövründə iqtisadiyyatın bütün funksional sahələri üzrə optimal nəticələr əldə olunmuş, regionların sosial-iqtisadi inkişafına, biznes mühitinin liberallaşdırılmasına istiqamətlənmiş dövlət siyasətinin davam etdirilməsi istər ümumi daxili məhsulun, istərsə də strateji valyuta ehtiyatlarının artımına imkan yaratmışdır. Birinci rübdə sənaye istehsalı 2 faiz, qeyri-neft sənayesi təxminən 10 faiz artmışdır və bu da ölkəmizdə son illər ərzində aparılan sənayeləşmə siyasətinin nəticəsidir. Qeyri-neft sənayesinin 10 faiz, kənd təsərrüfatının 4,2 faiz, bitkiçiliyin 50 faizdən çox artımı da hesabat dövrü üçün rekord göstəricilərdən biri sayıla bilər.

Son illər qeyri-neft sektorunun inkişaf etdirilməsi baxımından kənd təsərrüfatına xüsusi diqqət və qayğı ilə yanaşılır. Aqrar sahənin vergilərdən azad edilməsi, subsidiyaların, güzəştli kreditlərin verilməsi və digər dövlət dəstəyi mexanizmlərinin tətbiqi, bu sahədə infrastrukturun yaxşılaşdırılması öz praktik nəticələrini verir. Dövlət investisiyaları hesabına Taxtakörpü, Şəmkirçay və Tovuzçay su anbarlarının, Baş Mil-Muğan kollektorunun tikintisi, aqrotexniki xidmət işlərinin yerinə yetirilməsinin keyfiyyətini yüksəltmək üçün “Aqrolizinq” ASC-nin yaradılması və s. tədbirlər bu sahənin inkişafına təkan vermişdir.

Dövlət başçısı tərəfindən ənənəvi kənd təsərrüfatı sahələrinin- pambıqçılığın, baramaçılığın, ipəkçiliyin, tütünçülüyün, çəltikçiliyin, çayçılığın, fındıqçılığın, sitrus meyvəçiliyinin inkişafı istiqamətində imzalanmış sərəncamlar, keçirilmiş müşavirələr, həmçinin istehsalçılara subsidiyaların verilməsi ixrac potensialının artırılmasına və bölgələrdə tarixi məşğulluq ənənələrinin bərpasına mühüm təkan vermişdir. Pambıqçılığın inkişafı istiqamətində qarşıya qoyulan vəzifələrin icrası yaxın illərdə ölkəmizdə pambıq emalını 400 min tona çatdırmağa imkan verəcəkdir.

Bütün bunların nəticəsi olaraq Azərbaycan "Doing Business" hesabatına əsasən Azərbaycan 2017-ci ildə 190 ölkə arasında 57-ci pillədə, Davos İqtisadi Forumunun "Qlobal Rəqabətədavamlılıq" hesabatında isə 35-ci pillədə qərarlaşmışdır. Eyni zamanda, respublikamız "Siyasətçilərə ictimai etimad" adlanan indikator üzrə dünyada 20-ci pilləyə yüksəlmişdir və bu da xalqın iqtidara böyük etimadını səciyyələndirən mühüm göstəricidir.

Azərbaycan Prezidenti cənab İlham Əliyev YAP-ın 2018-ci ilin fevral ayında keçirilmiş qurultayında ölkədə yürüdülən siyasətin əsasında insan və vətəndaş amilinin dayandığını bir daha bəyan etmişdir: *«Mən dəfələrlə demişəm, bir daha demək istəyirəm ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun problemləri, onun qayğıları, onun rifahı dayanır. Xalq-iqtidar birliyi Azərbaycanda sabitliyi şərtləndirən əsas amildir, bu gün var və gündən-günə güclənir».*(4)

2003-cü ildən ölkədə məqsədyönlü surətdə həyata keçirilən sosial infrastruktur layihələrinin əsasında da məhz insan amili, vətəndaşa layiqli xidmət məramı dayanmışdır. Dəniz səviyyəsindən 3000 mert hündürlükdə yerləşən Xınalıq kəndinə yolun, Sovet dövründən mavi yanacaq üzü görməyən Lerik və Yardımlıya qaz kəmərinin çəkilməsi, eləcə də

Naxçıvanın davamlı olaraq elektrik enerjisi və qazla təmin olunması, Bakıya Oğuz-Qəbələ zonasından su kəmərinin çəkilməsi, paytaxtda yeni körpülərin, yol ötürücülərinin, piyada keçidlərinin istifadəyə verilməsi, respublika əhəmiyyətli yollarda əsaslı yenidənqurma işlərinin aparılması, rayonlarda yeni təhsil, səhiyyə, mədəniyyət, olimpiya-idman komplekslərinin tikintisi, qaçqın düşərgələrinin tamamilə ləğvi və digər tədbirlər dövlət başçısı İlham Əliyevin sosial siyasətinin dinamizmini, səmərəliliyini bir daha sübuta yetirir.

Qlobal maliyyə böhranı şəraitində bu və digər mütərəqqi meyarlara söykənən çevik idarəetmə modelinin formalaşdırılması da Azərbaycanın dövlət siyasətinin strateji hədəflərindəndir. Ölkədə və regionda, ümumilikdə, qlobal planda cərəyan edən mürəkkəb siyasi, iqtisadi və humanitar proseslər müasir islahatçı baxışın və idarəetmə formalarının tətbiqini aktuallaşdırdığından, dövlətimizin başçısı rəhbəri olduğu komandanın bu çağırışlara hazır olmasını vacib sayır. Cənab İlham Əliyevin təşəbbüsü və xalqımızın azad siyasi iradəsinin təntənəsi kimi tarixiləşmiş 2016-cı ilin 26 sentyabr referendumu ilə Azərbaycan Respublikasında vitse-prezident vəzifələrinin təsis edilməsi, 2017-ci il 21 fevral tarixdə Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın Azərbaycanın Birinci vitse-prezidenti vəzifəsinə təyin olunması, bu mənada, postneft dövründə Azərbaycanda həyata keçirilən çoxşaxəli islahatların davamlılığını təmin etmək və dövlət idarəçiliyinin səmərəliliyini yüksəltmək məqsədinə xidmət etmişdir.

Son prezident seçkilərindən dərhal sonra dövlətimizin başçısının qətiyyətlə həyata keçirdiyi kadr islahatları - müasir təfəkkürlü və idarəetmə sahəsində novatorluğu ilə fərqlənən gəncləri irəli çəkməsi ölkədə islahatların miqyasını və tempini sürətləndirmək, xidmət sahələrində vətəndaş məmnunluğunu, idarəçilikdə səmərəliliyi və şəffaflılığı təmin etmək niyyətindən irəli gəlir. Hazırkı məsuliyyətli mərhələdə dövlət məmurları qarşısında vətəndaşların mənafeyi naminə daha səy və bacarıqla işləmək, islahatların düzgün, vaxtında reallaşdırılmasını təmin etmək, xalqın xidmətçisi olmaq kimi ümdə vəzifələr müəyyənləşdirilmişdir.

Xatırlatmaq yerinə düşər ki, akademik Ramiz Mehdiyev *«Zaman haqqında düşünərkən və elitanı transformasiya edərkən: varislik və innovasiyalılıq»* əsərində Azərbaycanda siyasi elitaların təkamül yolu ilə əvəzlənməsinin iqtisadi inkişaf proseslərinə təsirini tədqiq etmişdir. Müəllif əsərdə haqlı olaraq göstərir ki, kadrların yeni, intellektual və kreativ insanlarla əvəz edilməsinin təkamül xarakteri əvvəlki nəsillərin ənənələrinin, təcrübəsinin qəbul olunması, onlara hörmət edilməsi müasir inkişafın və postmodernist demarşın tələblərinə uyğun olaraq yenilik gətirən ideyaların tətbiqi prinsipi əsasında qurulur. Azərbaycanda yeni siyasi elitanın formalaşdırılması daha çox dövlət idarəçiliyinin müasirləşdirilməsi, «elekton hökumət»in yaradılması, bir sözlə, bütün sahələrdə idarəetmənin kompüterləşdirilməsi, innovasion yeniliklərin tətbiqi ilə şərtlənir.(5)

Şübhəsiz, bu yanaşma respublikamızın qısa müddətdə həm də elektron xidmətlər sahəsində əldə etdiyi böyük uğurlara əsaslanır. Son illər korrupsiyaya qarşı mübarizə tədbirləri çərçivəsində yaradılmış «ASAN xidmət» mərkəzləri qısa müddətdə ictimaiyyətin böyük inam və etimadını qazanaraq Azərbaycanın milli brendinə çevrilmişdir. Yeni, müasir, şəffaf və çevik xidmət növü vətəndaşların dövlətə olan inam və etimadını, güvənini daha da artırmaqla yanaşı, ölkə başçısının neqativ hallara qarşı mübarizədə prinsipial siyasi iradə nümayişinin bariz təcəssümü olmuş, respublikamızın beynəlxalq arenada nüfuzu daha da yüksəlmişdir.

Son 15 ildə modernləşmə istiqamətində inamlı addımlar atan Azərbaycanın dövlət siyasətinin prioritet istiqamətlərindən biri də iqtisadi, siyasi və hüquqi islahatları cəmiyyətin inkişaf ahənginə uyğun dərinləşdirmək, son nəticədə qanunun aliliyini, insan hüquqlarının prioritetliyini bütün səviyyələrdə təmin etməkdir. Azərbaycan Prezidenti İlham Əliyevin 28 iyul 2007-ci il tarixli "Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli

Strategiyanın təsdiq edilməsi barədə" Fərmanı, 2012-ci il 5 sentyabr tarixli «Açıq hökumətin təşviqinə dair 2012-2015-ci illər üzrə Milli Fəaliyyət Planı» və «Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üzrə Milli Fəaliyyət Planı», 2011-ci il 23 may tarixli "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" fərmanı, vahid elektron hökumət portalının (www.e-gov.az) yaradılması şəffaf və açıq cəmiyyət quruculuğuna xidmət etmişdir. 2016-cı ildə təsdiq olunmuş "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı" da şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə baxımından mühüm vəzifələr müəyyənləşdirmişdir.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin 28 dekabr 2006-cı il tarixli Sərəncamı ilə təsdiqlənmiş "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı", habelə 2011-ci il 27 dekabr tarixli «Azərbaycan Respublikasında İnsan Hüquqları sahəsində Milli Fəaliyyət Proqramı» insan hüquqlarının müdafiəsi sahəsində yeni imkanlar açmışdır.

Bütün bunlar - iqtisadi inkişaf, demokratikləşmə, dövlət idarəçiliyində şəffaflığın təmin olunması istiqamətində atılan davamlı addımlar rəsmi Bakıya xarici siyasətin də uğurla reallaşdırılmasına geniş imkanlar açmışdır. Son 15 ildə iqtisadi inkişaf və demokratikləşmə xəttini milli inkişafın dəyişməz formulu kimi önə çəkən dövlət başçısı respublikamızın qlobal siyasi arenada müsbət imiclə tanınmasını, regional və beynəlxalq iqtisadi əməkdaşlıq mərkəzinə çevrilməsini təmin etmişdir. Beləliklə, həm də hücum xətti üzərində qurulan çevik və səmərəli xarici siyasət yürütmək imkanı qazanan cənab İlham Əliyev «güclü dövlət - müstəqil siyasət» devizini praktik olaraq gerçəkləşdirmişdir.

Son 15 ildə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları əsasında ədalətli həlli, coğrafi baxımdan yaxın-uzaq dövlətlərlə, aparıcı beynəlxalq təşkilatlarla ikitərəfli və çoxtərəfli əməkdaşlıq münasibətlərinin dərinləşdirilməsi, respublikamızda həyata keçirilən mütərəqqi ruhlu islahatlar barədə dünya ictimaiyyətində obyektiv rəyin formalaşdırılması, sivil, ədalətli oyun qaydaları əsasında enerji resurslarının ixracı və şaxələndirilməsi prosesinin gerçəkləşdirilməsi dövlət başçısı İlham Əliyevin xarici siyasətində diqqəti xüsusi çəkən prioritetlər olmuşdur. Məhz bu diplomatik reallıqlar fonunda respublikamızın Avropa üçün geosiyasi və iqtisadi əhəmiyyəti daha da yüksəlmiş, avrostrukturlara inteqrasiya prosesi sürətlənmişdir.

Son 15 ildə xarici və daxili siyasətin, ordu quruculuğu strategiyasının əsas məqsədi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllidir. 2016-cı ilin aprelində Azərbaycanın təcavüzkar dövlət üzərində qazandığı layiqli zəfərdən sonra aparıcı dövlətlər münaqişənin sərhədlərin toxunulmazlığı və ölkənin ərazi bütövlüyü çərçivəsində həlli vacibliyini daha aydın dərk edirlər. Ümumilikdə, proseslərin gedişi Azərbaycana artıq Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin hərbi yolla həllini hər an gündəmə gətirməyə imkan yaradır. Hazırkı mərhələdə Azərbaycanın diplomatik səyləri təkcə Ermənistan rəhbərliyinin ifşasına deyil, həm də hərb yolunun nə vaxtsa qaçılmaz variant olacağını «sülh və tərəqqipərvər» dövlətlərə sübut etmək istiqamətində qurulmuşdur.

Hansısa mərhələdə rəsmi Bakıya təsir göstərməyə çalışan, hegemonluq iddiasında olan dövlətlər bunun mənasızlığını dərk edərək respublikamızla qarşılıqlı faydalı, bərabərhüquqlu əməkdaşlığa üstünlük verirlər. Bunun nəticəsidir ki, xüsusən ötən 10 ildə dünyada sülh, sabitlik və təhlükəsizlik problemlərinin həllinə, eləcə də tolerant və multikultural ideyaların təbliğinə xidmət edən qlobal formatlı forumlar, konfranslar məhz Bakı şəhərində keçirilir. Beynəlxalq səviyyədə "Bakı prosesi"nin tərkib hissəsi kimi dəyərləndirilən bu təşəbbüslər Azərbaycanın Şərqlə Qərbi təkcə əlverişli tranzit və enerji-kommunikasiya imkanları ilə deyil, həm də mədəni-mənəvi tellərlə bağlayan ölkə olduğunu bir daha göstərir.

"Bakı prosesi" çərçivəsində keçirilən, humanitar əməkdaşlıqla bağlı qlobal əhəmiyyətli məsələlərin müzakirə edildiyi humanitar forumların məqsədi XXI əsrdə bəşəriyyətin qarşısında duran qlobal çağırışlara cavablar axtarmaq, növbəti onilliklər üçün müvafiq strategiyanı müəyyən etməkdir. Bu tədbirlər sayəsində Azərbaycan hazırda dünyada demokratiya yolunda inamla irəliləyən, multikultural dəyərlərə sadiq olan, sürətlə inkişaf edən ölkə kimi tanınır. Bu və digər forumlarda iştirak edən dünyanın nüfuzlu ictimai-siyasi xadimləri, ekspertləri ölkəmizin dinamik inkişaf tempi, xalqımızın tolerantlıq mədəniyyəti barədə xoş fikir və rəylər bildirirlər. Məsələn, Bakıda keçirilmiş humanitar təmayüllü forumlarda çıxış edən UNESCO-nun baş direktoru xanım İrina Bokova, BMT-nin Sivilizasiyalar Alyansı üzrə ali nümayəndəsi Nassir Abdulaziz Al-Nasser, BMT-nin Dünya Turizm Təşkilatının baş katibi Taleb Rifai, İslam Əməkdaşlıq Təşkilatının baş katibi Yusif Əl-Osaymin, ISESCO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tuveycri, Avropa Şurası baş katibinin müavini xanım Qabriella Battaini Draqoni, Litvanın sabiq Prezidenti Valdas Adamkus, Bolqarıstanın sabiq Prezidenti Jelyu Jelev və başqaları «Bakı prosesi» çərçivəsində keçirilən tədbirin əhəmiyyətindən söz açmış, Azərbaycanın mədəniyyətlərarası dialoq prosesində mühüm təşəbbüslərlə çıxış etdiyini və mərkəz rolunu oynadığını qeyd etmişlər.

Bir sözlə, Azərbaycanda keçirilən beynəlxalq tədbirlər bir tərəfdən respublikamızın iqtisadi və turizm potensialını, mədəniyyətini dünyaya tanıtmaq, digər tərəfdən multikultural dəyərlərə sadiqliyini bütün dünyaya nümayiş etdirməkdir. Bu tədbirlər həm də Ermənistan rəhbərlərinin "Dağlıq Qarabağ ermənilərinin Azərbaycanda yaşaması üçün tolerant mühitin olmaması» kimi cəfəng və əsassız iddialara ən tutarlı cavabdır.

**Hazırda Azərbaycanın dövlət siyasətinin ən başlıca hədəflərindən biri də ölkəmizi inkişaf etmiş dövlətlərlə bir sıraya çıxarmaqdır. Əgər 15 il əvvəl Azərbaycanın inkişaf etmiş ölkələr sırasına daxil olmaq istəyi cəmiyyətdə müəyyən skeptik və qeyri-adekvat yanaşmalara yol açırdısa, hazırda bu məqsədin reallığa adekvat olduğu birmənalı qəbul edilir. Ölkəmizin ildən-ilə artan sosial-iqtisadi imkanları deməyə əsas verir ki, Azərbaycan modernləşmə mərhələsini də tezliklə başa vuraraq dünyanın ən inkişaf etmiş dövlətləri ilə bir sırada dayanmaq imkanı əldə edəcəkdir.**

**Açar sözlər:** *müstəqil siyasət, yüksək sosial rifah, iqtisadi islahatlar, milli özünüdərk, realist təfəkkürlü lider, strateji yol xəritəsi.*

## İstifadə olunmuş ədəbiyyat:

1. Mehdiyev R. “Prezident İlham Əliyevin iqtisadi inkişaf strategiyasının əsas istiqamətləri”.https://azertag.az/xeber/Prezident_Ilham_Aliyevin_iqtisadi_inkisaf_strategiyasin in_esas_istiqametleri-1153387

2. Strateji Yol Xəritəsində əsas hədəflərdən biri qeyri-neft sektorunun inkişafını sürətləndirməkdir. Xalq qəzeti. http://xalqqazeti.com/az/news/economy/80008

3.Azərbaycan zirvəsi. «Azərbaycan» qəzeti, 04 may 2018. http://www.azerbaijan-news.az/index.php?mod=3&id=146222

4. Heydər Əliyev Mərkəzində Yeni Azərbaycan Partiyasının (YAP) VI qurultayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqi. 8 fevral 2018. https://az.president.az/articles/26988

5. Mehdiyev R. Zaman haqqında düşünərkən və elitanı transformasiya edərkən: varislik və innovasiyalılıq.
http://www.anl.az/down/meqale/azerbaycan/azerbaycan_dekabr2008/65451.htm

**Исахан ВЕЛИЕВ**

## ПРИОРИТЕТНЫЕ ЦЕЛИ В ГОСУДАРСТВЕННОЙ ПОЛИТИКЕ: СИЛЬНОЕ ГОСУДАРСТВО, НЕЗАВИСИМАЯ ПОЛИТИКА, ВЫСОКОЕ СОЦИАЛЬНОЕ БЛАГОСОСТОЯНИЕ

### Резюме

В статье автор сгруппировал приоритетные направления государственной политики Азербайджана с точки зрения регулирования различных общественных отношений; сделав краткий экскурс в период до 1993 года, он проанаризировал суть реформ, про изведенных общенациональным лидером Гейдаром Алиевым. Автор отмечает что после возвращения его  к власти по настоятельному требованию народа Азербайджан избежал опасности быть стертым с карты мира в качестве независимого государства. Осуществленные в этот период Гейдаром Алиевым комплексные реформы в политике, экономике, правовом регулировании и в других областях стали результатом реализации научно обоснованной модели национально-экономического развития страны, новой нефтяной стратегии, выдвижения на передний план идеи формирования средного класса как гаранта стабильности в обществе привелик укреплению государственной независимости устойчивому развитию Азербайджана. Это и явилось основной государственной политики страны.

Далее в статье отмечается, что эта политика сегодня успешно продолжается Президентом Ильхамом Алиевым и концептуальные основы независимой политики главы государства отражены в Конситуции Азербайджанской Республики.

**Ключесвые слова:** *независимая политика, высшее социальное благосостояние, экономические реформы, национальное самосознание,реалистично-мыслящий лидер, стратегическая дорожная карта*

**Isakhan VELIYEV**

## THE PRACTICAL GOALS IN STATE POLICY: POWERFUL INDEPENDENT POLICY OF THE STATE, HIGH SOCIAL WELFARE

### Summary

In the article the author has grouped the priority directions of state policy of Azerbaijan from the standpoint of regulating different social relations: having made an excursus to 1903 he analyzed an essence of the reforms carried out by the national Heyder Aliev, the author notes that after his return to power by the urgent reguest of Azerbaijani people, avoided a treat

to be wiped out from the map as independent state. Implementation in this period of the complex reforms by Heydar Aliev in policy, economics, law regulation and other fields has become a result of bringing to life scientificully grounded model of the national-economic development of country, a new oil strategy putting on the foreground the ideas of the formation of the middle class as a guarantor of stability, have led to the stable development of independent Azerbaijan. Namely this has just the main goal of state polisy of the country.

Turther, the author notes this polisy is successfully continued by Prezident Ilham Aliyev and conceptual bases of independent policy of the head of state are reflected in the Constitution of Azerbaijan Republic.

**Keywords:** independent policy, high social welfare, economic reforms, national self consciousness, reali stically thinking leader, strategical road map.